# Yağışlı bir gün idi...

HEKAYƏLƏR TOPLUSU

**Yağışlı bir gün idi...**

*hekayələr toplusu*

*Nəşriyyat redaktoru:* Kərim Kərimli
*Texniki redaktor:* Səlminaz Qasımova
*Korrektor:* Flora Əliyeva
*Art-direktor:* Sevinc Ələkbərova
*Üz qabığının dizaynı:* Fikrət Məlikov
*Çapa məsul:* Rəşad İsmixanov

Bakı, TEAS Press Nəşriyyat evi, 2024, 436 səh.

ISBN 978 9952 573 00 8

Kitab TEAS Press Nəşriyyat Evi
tərəfindən çapa hazırlanıb.

www.teaspress.az
Bütün hüquqlar qorunur.

© "Ədibin evi", 2023

© TEAS Press Nəşriyyat evi, 2024

# Mündəricat

*Ön söz* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5

**Seymur Oruc.** “Yağışlı bir gün idi...” *(I yer)* . . . . . . . . . . . . 11
**Daşqın Məmmədov.** Bənövşə xala *(II yer)* . . . . . . . . . . . . . . 15
**Maha.** Su *(II yer)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 25
**Xatirə Kərimova.** Qəmli hekayə . . . . . . . . . . . . . . . . . . . 34
**Vüsal Əhmədov.** Ağcaqanad kolleksiyası . . . . . . . . . . . . . . 40
**Nizami Əlioğlu.** Nigaranlığın sonu . . . . . . . . . . . . . . . . . . 49
**Aybəniz İsmayılova.** “Xəbərlər”in axşam buraxılışı... . . . . 57
**Daşqın Məmmədov.** Qızcığaz . . . . . . . . . . . . . . . . . . . . . . . 62
**Nazim Əhmədli.** Kəndimizin ruhu . . . . . . . . . . . . . . . . . . . 69
**Hümbət Həsənoğlu.** Gecə zəngi . . . . . . . . . . . . . . . . . . . . 76
**Oğuz Alparslan.** Qurban . . . . . . . . . . . . . . . . . . . . . . . . . 82
**Orxan Həsəni.** Çiy balıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . 84
**Mina Rəşid.** Vətən sağ olsun! . . . . . . . . . . . . . . . . . . . . . 104
**İlknur Salamova.** Balıqqulaqları və sevdiyim qız . . . . . . 110
**Əlisəfdər Hüseynov.** “Bizə bişir bir qayğanaq...” . . . . . 115
**Əli bəy Azəri.** Allah adamı . . . . . . . . . . . . . . . . . . . . . . . 124
**Murad Köhnəqala.** Buğdanın göyə çəkilməsi *(III yer)* . 134
**Zahid Xəlil.** Zirinc kolunun laylası *(III yer)* . . . . . . . . . . 140
**Töhfə Həmzəyeva.** Təsadüf . . . . . . . . . . . . . . . . . . . . . . . 150
**Ayxan Ayvaz.** Banan qabığı . . . . . . . . . . . . . . . . . . . . . . . 159
**Vahid Əhəd.** Unudulmuş köndələn vəziyyət . . . . . . . . . 166

**Vüsal Bağırlı.** Uçurumdan qoruyan . . . . . . . . . . . . . . . .172
**Zaur Ustac.** Qismət. . . . . . . . . . . . . . . . . . . . . . . . . . .185
**Nigar Mahmud.** Mən kiməm?. . . . . . . . . . . . . . . . . . . . . .193
**Coşqun Xəliloğlu.** Tar . . . . . . . . . . . . . . . . . . . . . . . . .208
**Ümbülbanu Hacıyeva.** Sükutun harayı . . . . . . . . . . . . . .212
**İlhamə Nasir.** Kurqan . . . . . . . . . . . . . . . . . . . . . . . . . .222
**Naibə Yusuf.** Görüş. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .230
**Əli Zərbəli.** Qəhqəhə . . . . . . . . . . . . . . . . . . . . . . . . . .236
**Salbina Bunyətova.** Boz divan. . . . . . . . . . . . . . . . . . . .251
**Oğuz Ayvaz.** Absurd adamın əzabı. . . . . . . . . . . . . . . . .254
**Nigar Babayeva.** Ayrılıq balladası. . . . . . . . . . . . . . . . . .263
**Mahir Rəsuloğlu.** Bağışla, səni öldürməliyəm! *(III yer)* . . 270
**Hafiz Ataxanlı.** Üzüyola adam . . . . . . . . . . . . . . . . . . .279
**Aida Quliyeva.** Xalça naxışlı gün . . . . . . . . . . . . . . . . . .286
**Aydan Həsənova.** Vacib iş . . . . . . . . . . . . . . . . . . . . . . .298
**Şəhram Sadıqzadə.** Arzular dünyası. . . . . . . . . . . . . . . . .305
**Ülkər Yusifova.** Atamın böyük oğlu . . . . . . . . . . . . . . . .314
**Asif Mərzili.** Borc dəftəri. . . . . . . . . . . . . . . . . . . . . . . .322
**Aliq Nağıoğlu.** Sənə çatan . . . . . . . . . . . . . . . . . . . . . .332
**Aqil Yaşaroğlu.** Qürur . . . . . . . . . . . . . . . . . . . . . . . . .340
**Mələk Abiyeva.** Bir atanın hekayəsi . . . . . . . . . . . . . . . .351
**Zəhra Abdulqədirova.** Bənövşəyi fincan . . . . . . . . . . . .358
**Jalə İslam.** Gizlənqaç . . . . . . . . . . . . . . . . . . . . . . . . . .362
**Könül Məmmədova.** Möcüzələr diyarı. . . . . . . . . . . . . . .372
**Şəbnəm Xeyrulla.** Sevən hormonlar . . . . . . . . . . . . . . . .380
**Pərviz Axund.** Çoban Səfərin məktubu. . . . . . . . . . . . . . .386
**Lalə Əmirquliyeva.** Şans təbəssümü . . . . . . . . . . . . . . . .420

# Söz oxucularındır

*Mir Cəlal adında III Hekayə Müsabiqəsi haqda bir neçə söz*

Mir Cəlal müəllim böyük ədəbiyyat adamı idi – yazıçı, ədəbiyyatşünas və böyük pedaqoq. Bu gün (elə dünən də!) yazı-pozu ilə məşğul olan bir çox qələm sahiblərinin müəllimi, elmi rəhbəri Mir Cəlal olub və onun pedaqoqluğu sadəcə "müəllim", "elmi rəhbər" çərçivələrinə sığışmırdı, o, böyük mənada yönəldən, göstərən, yetişdirən idi.

Mən əvvəllər də yazmışam: 1960-1970-ci illərdə iki möhtərəm qələm sahibi var idi ki, qazandıqları hörmət və nüfuz nəticəsində onların şəxsi adları tutduqları vəzifənin rəsmi adını da ifadə edirdi – BDU-da (keçmiş ADU-da) "Azərbaycan ədəbiyyatı kafedrası" yox, sadəcə "Mir Cəlal müəllimin kafedrası" və Nizami adına Ədəbiyyat İnstitutunda "Ədəbiyyat nəzəriyyəsi şöbəsi" yox, "Məmməd Cəfər müəllimin şöbəsi" deyirdilər.

Baxın, aradan onilliklər keçib, siyasi-ictimai epoxalar bir-birini əvəz edib, o kafedralar, şöbələr dəyişib, orada çalışan nəsillər yenilənib, ancaq dediyim həmin unikal anlayışlar – "Mir Cəlal müəllimin kafedrası", "Məmməd Cəfər müəllimin şöbəsi" – milli ədəbiyyatımızın yaddaşına həkk olunub.

Mir Cəlal müəllim sanballı romanların, bu gün də elmi aktuallığını itirməyən (və itirməyəcək!) monoqrafiyaların müəllifi idi və eyni zamanda o, Mirzə Cəlil və Əbdürrəhim bəy hekayə məktəbinin məşhur və məhsuldar nümayəndəsi idi. 1930-cu illərdən ta vəfat etdiyi günə, 1970-ci illərə kimi Azərbaycan hekayəsinin bir janr kimi təkamülündə və bu janrın Azərbaycan ədəbiyyatının milli faktoruna çevrilməsində, eləcə də Azərbaycan ədəbi-bədii dilinin təmizlənməsində və inkişafında Mir Cəlal müəllimin xüsusi rolu və sanballı bədii-estetik töhfəsi var.

Azərbaycan hekayəsi bu gün hansı vəziyyətdədir? Uğuru nə, çatışmayan cəhəti nədir? Dövrün, zamanın sürəti ilə ayaqlaşa bilirmi? Gənc qələmlər üçün nə dərəcədə doğma janrdır? Bu gün hekayəmizin əsas mövzusu nədir? Hekayə ilə bağlı bu kimi suallar çoxdur və Mir Cəlal adına Hekayə Müsabiqəsinin keçirilməsi bir tərəfdən Mir Cəlal müəllimin xatirəsini uca tutmaqdırsa, o biri tərəfdən də məhz bu suallara cavab axtarmaq, əgər belə demək mümkünsə, janrı (artıq milli janrı!) canlandırmaq, hətta bu sözü də işlətmək istəyirəm: silkələməkdir.

Müsabiqənin məqsədlərindən biri də ədəbi prosesdə bu janrın yerini möhkəmləndirmək və ədəbi tənqidin bu janra və onun problemlərinə diqqətini artırmaqdır.

Mir Cəlal adına I Hekayə Müsabiqəsi 2017-ci ildə, II Müsabiqə 2019-cu, III Müsabiqə isə pandemiyaya

görə bir il gecikərək, 2022-ci ildə keçirildi və bu qısa müddət kifayət etdi ki, Müsabiqə bir ədəbi hadisə kimi ümumi ədəbi prosesə daxil olsun, müasir ədəbi salnamədə öz yerini tuta bilsin.

Fikir verin: bu üç müsabiqəyə minə yaxın (!) hekayə təqdim edilib və əlamətdar bir cəhət də odur ki, Müsabiqənin coğrafiyası yalnız Bakını yox, müxtəlif bölgələrimizi, hətta ucqar kəndlərimizi belə əhatə edir. Bura onu da əlavə etsəm ki, Müsabiqəyə Türkiyədən, Bosniya və Herseqovinadan, Gürcüstandan, İrandan, Hindistandan, İndoneziyadan, Serbiyadan, Xorvatiyadan, Litvadan, Belarusdan da hekayələr göndərilib və Azərbaycan dilində yazılmış əksəriyyətdən başqa, bu hekayələrin arasında türk, rus, ingilis və s. dillərdə yazılmışları da var – o zaman, elə bilirəm ki, Mir Cəlal adına Hekayə Müsabiqəsinin ədəbi əhəmiyyəti və bədii-estetik əhatə dairəsi haqqında müəyyən təsəvvür yaranar.

Hekayə müəllifləri arasında yaşlı nəslin nümayəndələri də var, ancaq böyük əksəriyyət gənclərdən ibarətdir və bu da janra (ümumən götürsək, ədəbiyyata) yaradıcı meyil, yaradıcı həvəs baxımından maraqlı və ümumi intellektual inkişaf baxımından da, güman edirəm ki, xeyirli bir hadisədir – hekayə yazmaq istəyi, hekayəni sevmək, əlbəttə, hekayə mütaliəsinin nəticəsidir.

Müsabiqədə mükafat almış, eləcə də istedadla yazılmış (bəlkə “istedadı hiss olunan” desəm, daha düzgün olar), ancaq yer tutmamış hekayələr mətbuatda

(“Azərbaycan” jurnalında) dərc edilir, kitab kimi nəşr olunur və bu da öz gənclik təcrübəmdən deyirəm ki, ruhlandırır, daha ciddi məşğul olmağa sövq edir, indi tez-tez işlənilən sözdən mən də istifadə etsəm, motivasiya yaradır.

Mir Cəlal müəllim mənim həm müəllimim, həm də namizədlik dissertasiyamın elmi rəhbəri olub və mən onu şəxsən yaxından tanıyırdım: söhbət son dərəcə təmiz, düz, xeyirxah, sadə və işıqlı bir adamdan gedir. O nə qədər mülayim, həlim bir insan idisə, ədəbiyyata münasibətlə bağlı bir o qədər də ciddi və prinsipial idi. Mən onun şəxsiyyətindəki bu cəhətləri ona görə xatırladıram ki, bu cəhətlər Mir Cəlal müəllimin adını daşıyan Müsabiqənin münsiflər heyətinin işində də əsas götürülmüşdü və on nəfər yaxşı tanınan, ən əsası isə səriştəli ədəbiyyat adamından ibarət münsiflər heyətinin üzvləri mükafatçıların adlarını ən son məqamda – yəni onlar müəyyən olunandan sonra bildilər. Misal üçün, mən son müsabiqədə hekayələri mükafatlandırılan müəlliflər arasında yalnız bir nəfəri – Zahid Xəlili – şəxsən, bir nəfəri də – Murad Köhnəqalanı – imzasına görə tanıyırdım və qalan mükafatçılarla yalnız mükafatların təqdimat mərasimində tanış oldum. Eləcə də münsiflər heyətinin digər üzvləri...

İşimizin texniki təfərrüatına varmaq istəmirəm, ancaq onu deyə bilərəm ki, mən bu qısa ön sözü tam bir mənəvi rahatlıqla yazıram.

Rəsmi münsiflər öz işlərini bitirib.

İndi oxucuların qarşısında açılan bu kitaba Mir Cəlal adına III Hekayə Müsabiqəsinin qaliblərinin və bir sıra iştirakçılarının hekayələri toplanıb.

Artıq əsas münsiflər – oxuculardır.

Yuxarıda yazdığım suallara cavabı da oxucular verəcək.

**Elçin**
*Xalq yazıçısı,*
*münsiflər heyətinin sədri*
*28 sentyabr 2023-cü il*